# FOLKLORUMUZDA KONSTİTUSİON MÜDDƏALARIN İNİKASI

*(Əvvəli ötən saylarımızda)*

Belə deyəndən sonra kəndə yaxınlaşırlar. Gəlib "Haqq var, divan yox" deyib oğlunu çağıran arvadı tapırlar. Soruşurlar ki, o nə sözdür danışırsan ki, "Haqq var, divan yox". Bəs biz kimik ki burda? Arvad deyir ki, Padşah sağ olsun, hal-qəziyyə belə-belə. Bəs mənim ərim bir nəfərlə uzaq ölkəyə getmişdi. Onunla bir yerdə olan dostundan xəbər yollayıb ki, oğlum olsa adını "Haqq var, divan yox" qoyarsan. Mən də oğlumun adını çağırırdım ki, ta vaxtsızdı, şər qarışır, səsimi eşidib evə gəlsin.

Padşah bunları eşidib barmağını dişləyir. Deyir ki, vəzir, burda nəsə əmma var. Nəyə görə uşağın adını atası belə qoyub. Tez həmin kişini çağırtdırır. Məhkəmə-divan qurdurdurub kişini sorğu-suala çəkirlər ki, necə oldu ki, uşağın atası arvadına bu cür vəsiyyəti elədi.

Qatil kişi naəlac qalıb olanı açır. Kişini öldürdüyünü, ölən məqamında oğlunun adını "Haqq var, divan yox" qoymağı vəsiyyət etdiyini bildirir.

Padşah uşağın atasının mənimsənilən varını-pulunu geri qaytartdırır, özünü də həbs etdirir. Uşağın adını da dəyişdirib qoyur ki, "Haqq da var, divan da var".

Bu nağıl vasitəsilə də xalqın öz hökmdarına simpatiyası fonunda Konstitusion müddəaların haqq-ədalət üzərində qurulub ümumxalq mənafeyinə xidmət etdiyi ideyası əks olunmuşdur.

Gördüyümüz kimi, təkcə atalar sözü, məsəl, deyimlərimizdə deyil, digər folklor janrlarında, o cümlədən nağıllarımızda da xalqın Konstitusion düşüncələri öz ifadəsini müxtəlif şəkildə tapır. Nağıllarımızın məzmunundan doğan, nağıllarımızdakı müvafiq süjetlərdə "bir yerdə ki, yağla şorun qiyməti eynidir, orda haqq-ədalət yoxdur" tipli ifadələrin işlədilməsi də bilavasitə xalqın Konstitusiya hüquqları, haqq-ədalətə bağlı düçüncələrini göstərir.

Sevda Kərimova "Folklorla bağlı qanunvericilik" yazısının girişində göstərir ki, "Folklor bu anın, bundan əvvəlki zamanların, xalqların, yaşamın səsini toplayan, özündə saxlayan, özünə hopduran membran olmaqla yanaşı, həm də bundan sonrakı həyatın, yaşamın, anlayışların düzənini saxlayan, insanları bu həyata kökləyən kamerton rolunu oynayır. Düzgün köklənməmiş ən adi musiqi aləti həm sənətkarın istedadına, həm də orkestrin sinxron, uzlaşmış işinə xələl gətirdiyi kimi, düzgün, vahid, əsaslı anlayışlara, düşüncə və yaşam idealına və metoduna malik olmayan cəmiyyət, xalq da vahid ortama gəlib böyük hədəflərə köklənə bilməz.

Cəmiyyətin kamertonu folklordur. Milli-mənəvi, etnopsixoloji, mistik-kosmoqonik dəyər və anlayışları özündə əks etdirən, bir çox sirlərin və anlaşılmazlıqların açarı olan folklorla bağlı münasibətlərin hüquqi tənzimlənməsi, sözsüz ki, tam mənada mümkün deyildir.

Müasir folklorşünaslıq bizim adət etdiyimiz antroposentrizmin hüdudunu aşmaqda, daha geniş məna və mahiyyət ifadə etməkdədir. Folklora belə münasibət ənənəvi elmi qəliblərlə bir araya sığmır, yeni baxış, yeni metodika, yeni təfəkkür tərzi tələb edir.

Folklorun milli-mənəvi dəyərlər sisteminin formalaşmasında yerinin və rolunun artdığı, etnopsixologiyanın fəal öyrənilməsi və dövlət idarəçiliyində tətbiqinə ciddi əhəmiyyət verildiyi indiki müstəqillik zamanında bu sahənin xüsusi önəm daşıdığı hamı tərəfindən qəbul olunan faktdır" ("Folkor və dövlətçilik düşüncəsi". II kitab. "Elm və təhsil". 2017. s. 119)

Bu fikirlərdə də ifadə olunduğu kimi, düzgün düşüncə və yaşam idealına malik olmayan xalq vahid ortama gələ bilməz. Bunun üçün isə ilk növbədə xalqın milli ruhunun ifadəçisi olan folklorun müstəsna rolu vardır. Xalqı içindən toparlayan, təşkil eləyən qüvvə kimi xalq biliyinin ifadəçisi olan folklor mühüm rol oynayır, yazılmamış qanunlar külliyyatı şəklində xalqı vahid birliyə-dövlət halında mütəşəkkil birliyə səfərbər edir. Bu fikirləri bir başqa formada da belə ifadə eləmək olar ki, dövlətin qanunları, strateji hədəfləri xalqın ruhuna, mənəviyyatına uyğun hesablanmalıdır. "El gücü-sel gücü" məsəlimizdə deyildiyi kimi, xalqla dövlətin birliyi siyasi-iqtisadi cəbhədə daim bir olmalıdır. Bu kimi amillərə nəzərən folklorşünas Ağaverdi Xəlil "Folklorda dövlətçilik düşüncəsi və arxaik ritual" məqaləsində yazır ki, "Xalqımız milli müstəqil, hüquqi, demokratik dövlət quruculuğu prosesi yaşayır. Dövlətimizin və dövlətçiliyimizin möhkəmləndirilməsi üçün milli dövlətçilik ənənəmizin tarixinə və onun folklorda gerçəkləşən mənəvi məsələlərinin təsvirinə və təhlilinə də diqqət artırılmalıdır" ("Folkor və dövlətçilik düşüncəsi". III kitab. "Elm və təhsil". 2018. s.134)

Məntiq də bunu deyir ki, əgər xalq öz dövlətini qurub-yaradırsa və onu dövlət şəklində təşkil edirsə, həmin dövlətin əsas atributları da onu təmsil edən xalqın ruhunun, mənəvi varlığının bilavasitə təcəssümçüsü kimi çıxış edir, dövlət xalqın, xalq da dövlətin şəffaf aynası kimi bir-birində əks olunur. Dövlətin əsas Qanununu təşkil edən Konstitusiyası da xalq ruhundan, xalq ruhunun əbədi və möhtəşəm ifadəsi olan folklordan bəhrələnməklə xalqın hüququnun tənzimləyicisi funksiyasını yerinə yetirir.

**Şakir ALBALIYEV**